Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 182 (8205) CÜMƏ AXŞAMI, 22 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Ümid yeri

## Heydər Əliyev Fondunun 15 illik fəaliyyəti insanlara mərhəmət, xeyirxahlıq kimi ali dəyərləri əxz etməyə yönəlib

Konkret həyat amalına, zəngin mənəviyyata malik insanlar dövrünün problemlərinə əsl ziyalı yanğısı, vətəndaş təəssübkeşliyi ilə yanaşır, fürsət düşdükcə xalqının nicatına, təminatlı gələcəyinə xidmət edən xeyirxah əməllərin sahibinə çevrilirlər. Şəxsiyyətə hörmət, vətəndaşa həssas münasibət, insanlara qayğı və təmənnasız xidmət amalını özünün həyat kredosuna çevirmiş Mehriban xanım Əliyeva gördüyü işlərlə cəmiyyətdə mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilib.

Birinci xanımın 2004-cü ildən rəhbərlik etdiyi Heydər Əliyev Fondu isə Azərbaycan xalqının düşüncə sistemində xüsusi yer tutan mərhəmət, insanpərvərlik, xeyirxahlıq kimi ali dəyərlərə tapınaraq cəmiyyətin mənəvi saflaşmasına və yüksəlişinə hesablanan xoşməramlı missiya həyata keçirir.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyev 2003-cü ilin dekabrında dünyasını dəyişdikdən sonra onun zəngin irsinin qorunub saxlanması, gələcək nəsillərə çatdırılması və nurlu əməllərinin davam etdirilməsi məqsədilə xüsusi bir ictimai qurumun yaradılmasına dair müxtəlif təşəbbüslər irəli sürüldü. Cəmiyyətin sosial sifarişi nəzərə alınaraq, 2004-cü ilin mayında qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu yaradıldı. Fondun əsas missiyası Heydər Əliyevin həyat və fəaliyyətinin, ideyalarının öyrənilməsi və təbliği ilə yanaşı, ölkə daxilində və xaricdə sosial-iqtisadi və humanitar inkişafı dəstəkləmək idi.

Təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edən fond ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verməyə başladı.

Fondun məqsədləri Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək, Azərbaycanın tərəqqisi və xalqın rifahı naminə Ulu Öndərin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək idi.

Bununla yanaşı elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr, respublikanın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirmək, eləcə də yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətinin geniş təbliği, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək fondun məqsədləri sırasına daxildir. Bütün bunlarla yanaşı fond Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə də öz dəstəyini göstərdi.

Fəaliyyətə başladığı gündən Heydər Əliyev Fondunun qarşıya qoyduğu hər bir xoş məram Ulu Öndərin ali ideallarını özündə təcəssüm etdirdi. Şəxsiyyətə yüksək hörmət, vətəndaşa həssas münasibət, insanlara qayğı və təmənnasız xidmət amalını prioritet seçmiş fond qısa müddət ərzində humanizm prinsipinə söykənən praktik fəaliyyəti ilə cəmiyyətdə böyük ictimai nüfuz qazandı.

Bu bir həqiqətdir ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ötən 15 ildə fondun həyata keçirdiyi layihələrin mahiyyəti uzun illərlə görüləcək işlərə bərabərdir. Fond daha çox gələcəyə hesablanmış addımlar atmağı bacarır və təşkilatın diqqət yetirdiyi sahələr cəmiyyətin olduqca həssas qütbləridir. Fondun 15 illik fəaliyyəti keçmişlə gələcək arasında körpü yaratmağa, insanlara xeyirxahlıq, insanpərvərlik kimi ali dəyərləri əxz etməyə yönəlib.

Mehriban xanım Əliyevanın özünün də vurğuladığı kimi, fondun çoxşaxəli fəaliyyətinin başlıca qayəsi var - insanlara təmənnasız yaxşılıq etmək.

*Ardı 3-cü səh.*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7, maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797; Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1589-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 27.5-ci maddə əlavə edilsin:

"27.5. "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 13.4.3-cü və 20-ci maddələrinə uyğun olaraq müvafiq məlumatların və sənədlərin əldə edilməsinə görə dövlət rüsumu tutulmur.".

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

## "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1619-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1619-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 avqust 2019-cu il*

## Sahibkarlığın inkişafı qeyri-neft məhsulları istehsalını da artırır



Qeyri-neft məhsullarının ildən-ilə artmasında sahibkarlığın inkişafının xüsusi yeri var. Sahibkarlığın inkişafı sayəsində bu gün qeyri-neft sektorunda istehsal edilən məhsulun 77 faizi özəl sektora məxsusdur. Özəl sektora təkan verən başlıca amil isə dövlət tərəfindən onun dəstəklənməsi, xüsusilə güzəştli şərtlərlə kreditləşməsidir. Digər tərəfdən, dövlət ölkədə münbit investisiya mühiti yaradıb ki, bu da istər yerli, istərsə də xarici investorları Azərbaycana kapital qoyuluşuna təşviq edir.

Prezident İlham Əliyev sahibkarlığın inkişafına xüsusi önəm göstərdiyini vurğulayaraq demişdir: "Biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb. Dünya Bankının "Doing Business" proqramı çərçivəsində Azərbaycan 10 ən islahatçı ölkə kimi tanınır və biz 32 pillə irəliləmişik və hazırda 25-ci yerdəyik. Əlbəttə ki, bu, Azərbaycana investisiyaların cəlb edilməsi üçün müsbət rol oynayır və oynayacaq. Bütün xarici beynəlxalq maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir... Güzəştli şərtlərlə verilən kreditlərin həcmi bu il 170 milyon manat səviyyəsindədir".

Həyata keçirilən islahatlar, sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının inkişafına mühüm töhfə verir. Bunun nəticəsidir ki, cari ilin 6 ayında ölkə iqtisadiyyatı 2,4, qeyri-neft sektoru 3,2 faiz artıb. Ən böyük uğurlar qeyri-neft sektorunda xüsusi çəkisi olan qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizə yüksəlib. Digər rekorda isə kənd təsərrüfatında nail olunub. Belə ki, ilin birinci yarısında kənd təsərrüfatında 13 faiz artım müşahidə edilib. Bitkiçilikdə isə bu rəqəm 25 faizdir. Bunun sayəsində qeyri-neft ixracımız da artaraq 15 faizə yüksəlib.

Məlumdur ki, iqtisadiyyatın və sahibkarlığın dinamik inkişafında kapital qoyuluşunun özünəməxsus yeri var. Qeyd etdiyimiz kimi, ölkədə münbit investisiya mühiti hökm sürdüyü üçün dünya iqtisadiyyatında baş verən neqativ amillərə baxmayaraq, bu gün həm yerli, həm də xarici investorlar tərəfindən kapital qoyuluşu uğurla davam edir. Cari ilin birinci yarısında müxtəlif mənbələrdən ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. Sevindirici haldır ki, bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna yatırılıb. Kapital qoyuluşunda xarici investorlarla yanaşı, yerli sahibkarlar da fəal iştirak edirlər.

Ölkədə qeyri-neft sektorunun inkişafında həyata keçirilən sənayeləşmə siyasəti uğurla icra olunur. İlk sənaye parkları Bakı və Sumqayıtda yaradılsa da, indi onların regionlarda yaradılmasına üstünlük verilir.

*Ardı 3-cü səh.*

## Yeni müəssisədə 2500 nəfər işləyəcək



Bu gün ölkədə qeyri-neft sektorunun davamlı inkişafında, ixracyönlü məhsul istehsalının artırılmasında, eləcə də bölgələrdə məşğulluğun təmin olunmasında uğurlu göstəricilərə nail olunur. Ölkə başçısının 26 dekabr 2014-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq bütün bölgələrdə sənaye parklarının yaradılması, yeni müəssisələrin fəaliyyətə başlaması bu sahədə görülən işlərin nəticəsidir. Bu baxımdan Qazax rayonunda da sözügedən istiqamətdə konkret tədbirlər həyata keçirilir.

*Ardı 4-cü səh.*

## Ermənistanda hakimiyyətlə xalq arasında uçurum daha da dərinləşir

### İşğalçı ölkədə ictimai-siyasi vəziyyət sürətlə gərginləşir

Ermənistanda ən böyük problemlərdən biri ölkədə miqrasiya tempinin yeni vüsət alması, daha çox sayda insanın xaricə üz tutmasıdır. Hesab edilir ki, Ermənistanın gələcəyi ilə bağlı nikbin olmayanlar indiki durumda müxtəlif xarici ölkələrdə məskunlaşmağı ən yaxşı çıxış yolu sayırlar. Məhz bu səbəbdən miqrasiya ilə bağlı yenidən həyəcan təbili çalınır.

Erməni mediası yazır ki, baş nazir Nikol Paşinyan və onun komandasının fəaliyyəti nəticəsində Ermənistanın boşalması davam edəcək. Bunun əsas səbəbi kimi qeyd edilir ki, məhz yeni iqtidarın yarıtmaz siyasəti, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması səbəbindən təcrid vəziyyətinə düşmüş Ermənistan inkişafdan geri qalır. Ölkədə əhalinin sayının ildən-ilə azalması elə həddə çatıb ki, daha nə vaxtsa artacağı şübhə altındadır.

Vəziyyətin sosial-iqtisadi müstəvidə gərginləşməsi fonunda isə bu günlərdə paytaxt Yerevanda növbəti etiraz aksiyası keçirilib. Narazı kütlə parlamenti mühasirəyə alıb, paytaxt Yerevanın əsas yollarını bağlayıblar.

*Ardı 4-cü səh.*

# "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alır:**

1. "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 685; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 451; 1999, № 5, maddə 293; 2001, № 12, maddələr 731, 736; 2004, № 7, maddə 507; 2007, № 5, maddə 401, № 6, maddə 561, № 11, maddə 1078; 2008, № 7, maddə 602; 2019, № 3, maddə 379; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1552-VQD nömrəli Qanunu) 9-cu maddəsinin birinci hissəsinin 1-ci bəndinin ikinci cümləsində "Əhalinin məşğulluğu haqqında" Qanunda" sözləri "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda" sözləri ilə əvəz edilsin.

2. "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 235; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 226, № 5, maddə 379; 2001, № 11, maddələr 676, 683; 2004, № 6, maddə 397; 2005, № 1, maddə 5, № 8, maddə 684; 2006, № 11, maddə 922; 2007, № 5, maddə 437, № 11, maddə 1049; 2010, № 3, maddə 171; 2012, № 7, maddə 672; 2013, № 1, maddə 17; 2014, № 10, maddə 1172; 2018, № 1, maddə 6, № 6, maddə 1159; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1552-VQD nömrəli Qanunu) 11-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. birinci hissədə "dövlət məşğulluq siyasətinin hazırlanmasında iştirak edirlər" sözləri "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məşğulluğa kömək göstərilməsi tədbirlərinin həyata keçirilməsində iştirak edirlər" sözləri ilə əvəz edilsin;

2.2. ikinci və üçüncü hissələr aşağıdakı redaksiyada verilsin:

"İşəgötürənin təşəbbüsü ilə istehsalın səmərələşdirilməsi, əməyin təşkilinin təkmilləşdirilməsi, müəssisənin ləğv edilməsi, işçilərin sayının və ya ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq işçilərin sərbəstləşdirilməsi, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, müvafiq həmkarlar ittifaqı orqanlarına qabaqcadan (azı 3 ay əvvəl) yazılı məlumat verməklə, işçilərin hüquqlarının və mənafelərinin gözlənilməsi barədə onlarla danışıqlar aparılmaqla həyata keçirilir.

Həmkarlar ittifaqları "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 35-ci maddəsinə uyğun olaraq məşğulluq sahəsində nəzarətin həyata keçirilməsində iştirak edirlər.".

3. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765; 2018, № 5, maddə 872, № 12 (I kitab), maddə 2505) 8-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci hissədə "xüsusi" sözü "əlavə" sözü ilə əvəz edilsin;

3.2. altıncı hissə üzrə:

3.2.1. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, habelə onların arasından olan şəxslərin məşğulluğunun təmin edilməsi "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.";

3.2.2. üçüncü cümlə çıxarılsın.

4. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 580; 2002, № 10, maddə 586; 2005, № 5, maddə 391, № 6, maddə 464; 2006, № 5, maddə 389, № 6, maddə 478, № 12, maddə 1005; 2007, № 8, maddə 745; 2013, № 11, maddə 1314; 2014, № 12, maddə 1524; 2015, № 2, maddə 78, № 11, maddə 1297; 2017, № 12 (I kitab), maddə 2191; 2019, № 2, maddə 180; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1552-VQD nömrəli və 3 may tarixli 1585-VQD nömrəli qanunları) 17.2.4-cü maddəsində "statusu almış" sözləri "kimi qeydiyyata alınmış" sözləri ilə əvəz edilsin.

5. "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231; 2007, № 8, maddə 746; 2010, № 3, maddə 171; 2019, № 4, maddə 582) 8.1-ci maddəsinin ikinci cümləsi 2-ci hissə hesab edilsin.

6. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380; Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1565-VQD və 1568-VQD nömrəli qanunları) 21.2.5-ci maddəsindən "yenidən" sözü və "və ya təhsil aldığı" sözləri çıxarılsın.

7. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300; № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1553-VQD nömrəli Qanunu) 20.2-ci maddəsində "əmək birjalarının, məşğulluq idarələrinin" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin.

8. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 753; 2018, № 12 (I kitab), maddə 2519; 2019, № 1, maddə 25) aşağıdakı məzmunda 4.2.3-1-ci maddə əlavə edilsin:

"4.2.3-1. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 24.1.4-cü maddəsinə uyğun olaraq, seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün işsiz şəxslərə natura şəklində verilmiş material, avadanlıq və digər əmlakın siyahıya alınması;".

9. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514; 2018, № 12 (I kitab), maddə 2503; 2019, № 3, maddə 381) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.0.12-ci, 5.1.5-ci, 17.8-ci və 19.0.2.8-ci maddələrdə ismin müvafiq hallarında "aktiv tədbirlər" sözləri ismin müvafiq hallarında "aktiv məşğulluq tədbirləri" sözləri ilə əvəz edilsin;

9.2. 3-cü maddəyə "Konstitusiyası," sözündən sonra "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu," sözləri əlavə edilsin;

9.3. 5.1.6-cı və 19.0.3-cü maddələrdə "nəqliyyatı" sözü "xərcləri" sözü ilə əvəz edilsin;

9.4. 18-ci maddə üzrə:

9.4.1. 18.0.1-ci və 18.0.5-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"18.0.1. "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən məşğul şəxs hesab edildikdə;";

"18.0.5. sığorta ödənişini alan şəxs ona təklif olunan münasib işlərdən imtina etdikdə, 1 (bir) il müddətində;";

9.4.2. 18.0.9-cu maddəyə "müəssisəsinə" sözündən sonra "əyani" sözü əlavə edilsin;

9.4.3. 18.0.10-cu maddəyə "çağırıldıqda" sözündən sonra ", həmin müddətdə" sözləri əlavə edilsin;

9.4.4. 18.0.11-ci maddəyə "olduqda" sözündən sonra ", həmin müddətdə" sözləri əlavə edilsin;

9.4.5. 18.0.14-cü maddəyə "sənədlərdə" sözündən sonra "və məlumatlarda" sözləri əlavə edilsin və həmin maddədə "qanuna uyğun" sözləri "düzgün" sözü ilə əvəz edilsin;

9.4.6. 18.0.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 18.0.16-cı maddə əlavə edilsin:

"18.0.16. sığorta ödənişini alan şəxs tərəfindən işsiz kimi qeydiyyatdan çıxarılma barədə ərizə təqdim edildikdə.";

9.5. 19.0.2-ci maddədə "kimi qeydiyyata alınmış və işsiz statusu almış" sözləri "və işsiz kimi qeydiyyata alınmış" sözləri ilə və "aktiv tədbirlər" sözləri "aktiv məşğulluq tədbirləri" sözləri ilə əvəz edilsin;

9.6. 19.0.2.1-ci maddədə "hazırlığı və əlavə təhsilin" sözləri "hazırlığının" sözü ilə əvəz edilsin;

9.7. 19.0.2.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"19.0.2.6. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən maliyyələşdirilməsi;";

9.8. 19.0.2.7-ci maddədə "vətəndaşların" sözü "şəxslərin" sözü ilə, "əlavə iş yerlərinin və ixtisaslaşdırılmış" sözləri "kvotadan əlavə iş yerlərinin və sosial" sözləri ilə əvəz edilsin;

9.9. 19.0.6-cı maddədə "Aktiv tədbirlər" sözləri "Aktiv məşğulluq tədbirləri" sözləri ilə əvəz edilsin.

10. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386; 2019, № 3, maddə 381; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1552-VQD nömrəli Qanunu) 20.3-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"20.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) işaxtaran və (və ya) işsiz kimi qeydiyyata alınmış və 18 yaşı tamam olmuş əlilliyi olan şəxslərin peşə hazırlığı həmin orqanın göndərişi əsasında bu Qanunun 11-ci maddəsinə əsasən təsdiq olunmuş Fərdi Reabilitasiya Proqramına və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təmin edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1661-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1661-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 20.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 20.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

2.3. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 19.0.2.6-cı maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.4. həmin Qanunun 19.0.2.6-cı maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.5. həmin Qanunun 19.0.2.6-cı maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

2.6. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.7. həmin Qanunun 20.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 avqust 2019-cu il*

# S.N.Nağıyevə general-leytenant ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Sabir Nağı oğlu Nağıyevə general-leytenant ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2019-cu il*

# B.L.Əliyevə general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəhlul Lətif oğlu Əliyevə general-mayor ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2019-cu il*

# Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Xüsusi Dövlət Mühafizə Xidmətinin aşağıdakı hərbi qulluqçuları və mülki işçiləri təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Atakişiyev Kamil Atakişi oğlu - polkovnik
Zeynalov Elşən Əsgər oğlu - polkovnik

**"Vətən uğrunda" medalı ilə**

Əliyev Elçin Qədir oğlu - polkovnik
Babayev Həsənalı Balaca oğlu - polkovnik-leytenant
Hüseynov Ağabala Mirzəbala oğlu - polkovnik-leytenant
Muradov Namiq Adil oğlu - polkovnik-leytenant
İbrahimov Oruc Adil oğlu - mayor

**"İgidliyə görə" medalı ilə**

Abbasov Ədalət Hekayət oğlu - polkovnik
İbrahimov Mircəlal Cəfərağa oğlu - polkovnik
Mayılov Ağamiri Səfi oğlu - polkovnik
Cəfərov Sənan Aslan oğlu - polkovnik-leytenant
Əliyev Mürsəl Sadıq oğlu - polkovnik-leytenant
Eynalov Əfqan Telman oğlu - mayor
Mirzəyev Rəşad Gülağa oğlu - mayor

**"Tərəqqi" medalı ilə**

Rzayev Rasim Rahib oğlu

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Həsənov Rövşən Adil oğlu - polkovnik
Novruzov Vasif Usub oğlu - polkovnik
Rzayev Fikrət Əşrəf oğlu - polkovnik
Süleymanov Bəhlul Eyvaz oğlu - polkovnik
Cəfərov Qabil Kərim oğlu - polkovnik-leytenant
Təhməzov İrafət Ağasəf oğlu - polkovnik-leytenant
Bayramov Mübariz Aslan oğlu - tibb xidməti mayoru
Eminov Elşən Ərəstun oğlu - mayor
Eminov Vüqar Çingiz oğlu - mayor
Əhmədov Ramin İbrahim oğlu - mayor
Nəbiyev Tural Bəhman oğlu - mayor
Nəsirov Tamerlan Tariel oğlu - mayor
Behbudov Rəhim Əli oğlu - kapitan
Əhmədov Sərdar Eldar oğlu - kapitan
İsmayıl-zadə Elnur Tariyel oğlu - kapitan
Tatlıyev Orxan Ramiz oğlu - kapitan
Ələsgərov Rövşən Aydın oğlu - baş leytenant
Abıyev Vüqar İldar oğlu - gizir
Babayev Nemət Həbib oğlu - gizir
Xələfov Anar Səhhət oğlu - gizir
Hüseyinov Elçin Allahpayı oğlu - baş çavuş
Xudiyev Şamo Şakir oğlu - baş çavuş
Novruzbəyov Rasim Həsən-bala oğlu - baş çavuş
Zərbəliyev Cavanşir Ramiz oğlu - baş çavuş

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 avqust 2019-cu il*

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 21-də Göygöl rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller aparıblar.

# Atəşkəs rejimi 23 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ümid yeri



Əvvəli 1-ci səh.

Azərbaycan vətəndaşı Heydər Əliyev Fondunun prezidentinin vətəndaşlara diqqət və qayğı nümunələri ilə zəngin olan çoxşaxəli fəaliyyətini yüksək qiymətləndirir, belə xeyirxah əməllərin nə qədər vacib olduğunu dərk edir, öz yaşam fəlsəfəsini bu ideallara uyğunlaşdırmağa çalışır. Xeyirxahlıq, mərhəmət, ədalət kimi ülvi və saf dəyərlər fondun fəaliyyətində parlaq xətt təşkil edir.

Fond tərəfindən həyata keçirilən sosial layihələrə nəzər yetirək.

Öncə fondun təhsil sisteminin inkişafına verdiyi töhfələrə diqqət etsək görərik ki, Azərbaycan vətəndaşları üçün bərabər təhsil imkanlarının yaradılmasını, gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən qurum bu istiqamətdə bir sıra proqram və layihələr həyata keçirir. Bunlar “Uşaq evləri və internat məktəblərinin inkişafı”, “Yeniləşən Azərbaycana yeni məktəb”, “Təhsilə dəstək” layihələridir. Vətəndaş cəmiyyəti və özəl sektor tərəfindən dəstəklənən layihə və proqramlar çərçivəsində onlarla uşaq müəssisəsi, yüzlərlə məktəb binası inşa olunub və ya yenidən qurulub.







Fond gerçəkləşdirdiyi layihələrlə əhalinin sağlamlığının qorunmasında yaxından iştirak edir. Qurumun müəyyənləşdirdiyi başlıca vəzifələrdən biri uşaq evləri və internatlardakı azyaşlı və yeniyetmələrə, şəhid, qaçqın, məcburi köçkün və aztəminatlı ailələrdən olan, habelə müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara yardım etməkdir. Fond beynəlxalq təşkilatlar və dünyanın bir sıra aparıcı səhiyyə şirkətləri ilə əməkdaşlıq şəraitində “Diabetli uşaqlara ən yüksək qayğı”, “Talassemiyasız həyat naminə” və digər layihələr həyata keçirib, tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasına nail olub.

Fondun fəaliyyətinin mühüm istiqamətlərindən biri də xeyriyyəçilikdir. Valideyn himayəsindən, ailə qayğısından məhrum olan uşaqların cəmiyyətə inteqrasiyasını asanlaşdırmaq, asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə fond mütəmadi olaraq xeyriyyə aksiyaları keçirir.

Azərbaycandan kənarda da çox mühüm proqramlar reallaşdıran fondun layihələri əsasən üç istiqaməti əhatə edir: ölkəmizin tanıdılması, o cümlədən xalqımızın tarixi və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması; Azərbaycan və azərbaycanlılarla bağlı tarixi, mədəni irsin bərpası və qorunması; fondun məramına uyğun olaraq humanitar və sosial inkişafa kömək göstərilməsi.

Fond xarici ölkələrdə Azərbaycanın təqdimatını mədəniyyət günləri, sərgilər, habelə əlamətdar tarixi hadisələrə, tanınmış elm və mədəniyyət xadimlərinə həsr olunmuş mərasimlər təşkil etməklə yerinə yetirir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasına xüsusi önəm verən fond 2007-ci ildən başlayaraq hər il dünyanın bir sıra böyük şəhərlərində Xocalı soyqırımının ildönümü ilə bağlı aksiyalar keçirir. Aksiyalarda “Xocalı soyqırımı” filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər, müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar, “Qarabağ həqiqətləri” toplusu və “Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması” kitabı təqdim olunur. 2012-ci ilin fevralında fondun təşəbbüsü ilə Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda Srebrenitsa və Dağlıq Qarabağın Xocalı şəhərində törədilmiş soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılıb.

Fondun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi Rusiya nümayəndəliyi və onun həyata keçirdiyi layihələr, habelə “Xocalıya ədalət!” kampaniyası son illər xüsusi əhəmiyyəti ilə diqqət çəkir.

Qaçqın və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlər də fondun fəaliyyətinin prioritetləri sırasındadır.

Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur. Qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür.

Bu günlərdə xalqımız müqəddəs Qurban bayramını qeyd etdi. Hər yerdə qurbanlar kəsildi, dualar oxundu. Birinci vitse-prezident bu bayramda da aztəminatlı ailələri unutmadı. Onun təşəbbüsü ilə aztəminatlı ailələrə qurban payları paylanıldı. Bu da bir daha təsdiq etdi ki, sosial-iqtisadi inkişafa yönəlik dövlət proqramlarına dəstək verən Heydər Əliyev Fondu aztəminatlı ailələri, xüsusi qayğıya ehtiyacı olan şəxsləri daim diqqətdə saxlayır, müxtəlif bayramlar və əlamətdar günləri onlarla birlikdə qeyd edir.

Mehriban xanım Əliyevanın “Xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq ənənələri davam etdirməyə çalışırıq” sözləri xeyriyyəçiliyin fondun kredosuna çevrildiyini bir daha təsdiqləyir.

Göründüyü kimi, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən çoxşaxəli layihələri birləşdirən əsas xətt yüksək humanizm və insanpərvərlikdir. Cəmiyyətdə böyük ictimai nüfuz qazanmış fond bu gün həm də kimsəsiz, köməyə ehtiyacı olan insanların maddi-mənəvi hamisi rolunda çıxış edir. Fond insanlara ən müxtəlif səviyyələrdə yardım göstərməklə cəmiyyətdə yalnız sağlam ənənələrin, zəngin əxlaqi dəyərlərin möhkəmlənməsinə çalışır.

Bir sözlə, Ulu Öndər Heydər Əliyevin xatirəsini əbədiləşdirərək onun bütün nəsillərə örnək olan irsini təbliğ etmək məqsədilə 15 ildir fəaliyyət göstərən fond Azərbaycanın sosial-iqtisadi inkişafına xidmət edən genişmiqyaslı proqram və layihələrin həm təşəbbüskarı, həm də icraçısıdır.

***Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”***





# Hərbi pilot Rəşad Atakişiyev ilə vida mərasimi keçirilib









Plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin “MiQ-29” təyyarəsinin pilotu, polkovnik-leytenant Rəşad Atakişiyev ilə avqustun 21-də vida mərasimi keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təşkil olunan mərasimdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Əli Nağıyev, Fövqəladə Hallar Nazirliyinin məsul zabitləri, Türkiyə Respublikası hərbi attaşelik aparatının əməkdaşları və ictimaiyyətin nümayəndələri, mərhumun xidmət yoldaşları pilotun valideynlərinə və yaxınlarına başsağlığı veriblər.



Mərasimdə çıxış edən Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani polkovnik-leytenant R.Atakişiyevin həyat və döyüş yolu barədə məlumat verib. Bildirilib ki, R.Atakişiyev 1985-ci il yanvarın 7-də Samux rayonunun Alabaşlı qəsəbəsində anadan olub. Şəmkir rayonundakı şəhid Şöhrət Hüseynovun adını daşıyan Qılıncbəyli kənd orta məktəbini bitirib. 2002-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə daxil olan R.Atakişiyev 2006-cı ildə həmin məktəbi bitirib. Seçdiyi peşəni daha dərindən öyrənməyə səy göstərən pilot “polkovnik-leytenant” hərbi rütbəsinə qədər yüksəlib. R.Atakişiyev Azərbaycan Ordusunda xidmət etdiyi müddətdə peşəkar, nümunəvi, vətənpərvər zabit kimi tanınıb. Onun xidmətləri həmişə yüksək qiymətləndirilib. Hərbi hissənin qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsində fərqləndiyinə görə bir neçə medal ilə təltif olunub.

Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin “Turaz Qartalı” devizi altında keçirilən birgə taktiki-uçuş təlimlərində, eləcə də ötənilki möhtəşəm hərbi paradlarda onun nümunəvi uçuşları yüksək qiymətləndirilib.

Hərbi Hava Qüvvələrinin məsul zabitləri, polkovnik Elşad Pənahov və polkovnik Zaur Rüstəmov çıxış edərək Rəşad kimi vətənpərvər zabitlə xidmət etməkdən qürur duyduqlarını və ordumuzda onun kimi hərbi qulluqçuların yetərincə olduğunu vurğulayıb, mərhumun ailə üzvlərinə və əzizlərinə dərin hüznlə başsağlığı verib, “Vətən sağ olsun!” deyiblər.

Pilotun atası Saləddin Atakişiyev təyyarənin qəzaya uğraması nəticəsində həlak olan oğlunun nəşinin axtarışlarının təxirəsalınmaz tədbirlərlə aparıldığına və dəfnin əsgəri ənənələrə uyğun yüksək səviyyədə təşkilinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlığını bildirib: “Mən Rəşad kimi oğulla fəxr edirəm. Qürur duyuram ki, bu gün onun cənazəsi üzərinə üçrəngli Azərbaycan bayrağı sərilib. Oğlum Qarabağı azad etmək arzusu ilə yaşayırdı. Nə etməli, bu, ona qismət olmadı. Mən bu gün sizin qarşınızda bir daha söz verirəm ki, iki oğlumla birlikdə Qarabağ uğrunda Ali Baş Komandanın hər bir əmrinə hazıram. Vətən sağ olsun! Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

Ailəsi və doğmaları mərhumla vidalaşdıqdan sonra polkovnik-leytenant Rəşad Atakişiyevin cənazəsi dəfn edilməsi üçün hərbi orkestrin ifasında matəm marşının müşayiəti ilə II Fəxri xiyabana yola salınıb.

Polkovnik-leytenant R.Atakişiyev hərbi və dini ənənələrə uyğun olaraq yaylım atəşləri və Azərbaycan Respublikasının Dövlət himninin sədaları altında vətən torpağına əmanət edilib, məzarı üzərinə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın, Müdafiə Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, eləcə də Hərbi Hava Qüvvələrinin və digər qurumların adından əklil və tər qərənfillər düzülüb.

Hərbi Hava Qüvvələrinin komandanı, general-leytenant Ramiz Tahirov cənazə üzərinə sərilən üçrəngli Azərbaycan bayrağını əbədi xatirə kimi saxlanılması üçün mərhumun ailəsinə təqdim edib.

Zabit R.Atakişiyevin həyat yoldaşı Könül Atakişiyeva müqəddəs bayrağı qəbul edərək, “Rəşadın yadigarlarını, Turqut və Qabili onun adına layiq, bu bayrağa sədaqət ruhunda tərbiyə edəcəyəm. Vətən sağ olsun!”, - deyib.

Din xadimi şəhidlərin ruhuna dualar oxuyub.

Pilot Rəşad Atakişiyevin qayınatası, professor Qabil Hüseynli zabit ailəsinə göstərilən böyük diqqət və qayğıya görə dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

# Sahibkarlığın inkişafı qeyri-neft məhsullarının istehsalını artırır

Əvvəli 1-ci səh.

Məqsəd həm ölkənin xammal potensialından maksimum istifadə etmək, həm də bölgələrin inkişafına, işsizliyin aradan qaldırılmasına nail olmaqdır. Bu məqsədlə bölgələrdə yaradılan 9 sənaye park və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident artıq fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən artıq 5,7 milyard manatı faktiki olaraq yatırılıb. Qeyd edək ki, burada kapital qoyuluşunda xarici sahibkarlarla yanaşı, yerli sahibkarlar da fəallıq göstərir. Yatırılan sərmayə sayəsində artıq həmin müəssisələrdə 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlıq hissəsi xarici bazara göndərilib.



Aqrar sektorda məhsul istehsalının çoxalmasına bir səbəb də bu sahəyə özəl sektor tərəfindən sərmayə qoyuluşunun artmasıdır. Sahibkarlar regionlarda müasir texnika və texnologiyalardan istifadə edərək iri aqroparklar və fermer təsərrüfatları yaradır. Sözsüz ki, burada müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsi məhsuldarlığın da artmasına imkan verir. Ölkədə 51 aqroparkın yaradılması istiqamətində işlər görülür. Artıq 22 aqropark fəaliyyətdədir, ilin sonunadək 11 aqroparkın da fəaliyyət göstərməsi nəzərdə tutulub. Bu layihələrin icrası nəticəsində ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaq.

İnvestisiyaların təşviqi sahəsində görülən işlər də regionlarda sahibkarlığın inkişafına müsbət təsir göstərir. Bugünədək 4 minə yaxın layihə təşviq olunub və onların nəticəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub. Bunların nəticəsində bölgələrdə 16 mindən çox yeni iş yerinin açılması reallaşıb.

Dövlət iri sahibkarlıqla yanaşı, kiçik və orta sahibkarlığın inkişafına da dəstək verir. Cari ildə həmin istiqamətdə görülən işlər bunu bir daha təsdiq edir. Belə ki, son 6 ayda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarların maarifləndirilməsi, nümunəvi investisiya layihələrinin təqdim olunması, güzəştli kreditlərin verilməsi ilə bağlı 1500 sahibkarın iştirakı ilə 12 işgüzar forum keçirilib. Müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 178 milyon manat olan 510 investisiya layihəsinin maliyyələşdirilməsinə 50 milyon manatadək güzəştli kredit verilib. Güzəştli kreditlərin 68 faizi aqrar sektorun, 32 faizi sənaye istehsalı və emalın, eləcə də 44 faizi regionların, 56 faizi isə Bakı qəsəbələrinin payına düşür.

***Rüstəm KAMAL, “Azərbaycan”***

# Macarıstan, Çin və Latviyada təhsil almaq hüququ qazanmış tələbələrlə görüş



Avqustun 21-də Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində 2019-2020-ci tədris ilində Macarıstan, Çin və Latviyada təhsil almaq hüququ qazanmış tələbələrin bir qrupu ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə Təhsil nazirinin müavini Firudin Qurbanov ölkəmizdə təhsilə xüsusi diqqət göstərildiyini bildirib, bu sahənin inkişafı üçün həyata keçirilən tədbirlərdən danışıb.

HTP çərçivəsində təhsil almaq üçün müraciət edənlərin sayının ildən-ilə artdığını vurğulayan nazir müavini qeyd edib ki, 2019-2020-ci tədris ili üçün keçirilən müsabiqədə seçim yüksək rəqabətlilik şəraitində reallaşıb. Azərbaycan gənclərinin xaricdə təhsil almasının əhəmiyyətinə toxunan F.Qurbanov onların ölkəmizin dinamik inkişaf prosesinə töhfə verəcəklərinə əminliyini bildirib.

Azərbaycanın xaricdə təhsil ənənələri barədə məlumat verən nazir müavini ölkəmizdə dövlət gənclər siyasətinin formalaşdırılmasının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu, hazırda bunun Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi uğurla davam etdirildiyini söyləyib.

Nazir müavini ötən əsrin 70-80-ci illərindən azərbaycanlı gənclərin ölkə hüdudlarından kənarda nüfuzlu ali məktəblərdə oxumağa göndərildiyini, müstəqillik illərində xaricdə həm Hökumətlərarası Təqaüd Proqramları, həm də "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində təhsil alan gənclərə xüsusi diqqət göstərildiyini qeyd edib.

Çıxışının sonunda Firudin Qurbanov tələbələri təbrik edərək onlara tövsiyələrini verib, təhsillərində uğurlar arzulayıb. Bildirilib ki, 2019-2020-ci tədris ili üzrə Macarıstanda 177, Latviyada 13, Çində isə 30 nəfər təhsil alacaq.

Sonda tələbələri maraqlandıran suallarla bağlı geniş fikir mübadiləsi aparılıb.

Macarıstan, Çin və Latviya hökumətləri tərəfindən namizədliyi təsdiq olunan tələbələr təhsilini sözügedən ölkələrin aparıcı ali təhsil müəssisələrində, bakalavriat, baza ali tibb təhsili, magistratura və fəlsəfə doktoru səviyyələrində davam etdirəcəklər.

# Azərbaycanlı həkim ABŞ-da keçirilən beynəlxalq konfransda çıxış edib

ABŞ-ın Nyu York şəhərində Qadın Həkimlərin Beynəlxalq Assosiasiyasının 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.



Dünyanın müxtəlif ölkələrindən yüksəkixtisaslı həkim və alim qadınların maraqlı təqdimatlarla qatıldıqları konfransda qadın sağlamlığı, qadınlarda yoğun və düz bağırsağ xəstəliklərinin rastgəlmə tezliyinin araşdırılması, piylənmənin qadınlarda göstərdiyi fəsadlar və ondan çıxış yolları, eləcə də qadın həkimlərinin hüquqlarının qorunması kimi mövzular geniş müzakirə olunub. Tədbirdə ölkəmizi təmsil edən Mərkəzi Gömrük Hospitalının həkimi Aynur Səfiyeva "Kolorektal poliplərdə gender fərqləri" məruzəsi ilə çıxış edib.

Konfransda aparılan maraqlı müzakirələr və digər yeni təqdimatlar ilə bağlı Mərkəzi Gömrük Hospitalının ümumi cərrahı, tibb üzrə fəlsəfə doktoru Aynur Səfiyeva ilə həmsöhbət olduq.

A.Səfiyeva bildirdi ki, bu ilin aprel ayında Gürcüstanda Qadın Həkimlərin Beynəlxalq Assosiasiyasının keçirdiyi konfransda iştirak edib. Həmin konfransda Qadın Həkimlərin Beynəlxalq Assosiasiyasının prezidenti professor Bettina Pfleiderer və baş katibi xanım Shelley Ross ilə tanış olub. Azərbaycanlı həkimin çıxışı çox maraqla qarşılanıb: "Mən onlara Azərbaycanı təmsil etdiyimi və kolorektal poliplərlə bağlı tədqiqat işini apardığımı dedim. Bu mövzu onlara çox maraqlı gəldiyi üçün məni Nyu Yorkda keçiriləcək konfransa dəvət etdilər. Konfransda iştirak etmək üçün öncədən elmi mövzumun posterini və tezislərimi konfrans təşkilatçılarına göndərdim. Tezis məruzə şəklində qəbul edildikdən sonra Mərkəzi Gömrük Hospitalının dəstəyi ilə mən beynəlxalq konfransın spikerləri sırasına dəvət olundum".

Çıxış etdiyi mövzunun aktuallığının nədən ibarət olduğuna gəlincə isə Aynur Səfiyeva dedi ki, Qadın Həkimlərin Beynəlxalq Assosiasiyası dünyanın bütün qitələrini əhatə edən peşəkar təşkilatdır. Bu il Nyu Yorkda düzənlənən konfrans da məhz təşkilatın 100 illiyinə həsr olunub. Belə bir konfransda çıxış etmək onun üçün çox qürurverici haldır: "Apardığım elmi-tədqiqat işinin müəyyən bir hissəsini orada təqdim etdim. Konfrans iştirakçılarına müasir elmi araşdırılmalarda böyük maraq doğuran "kolorektal poliplərdə CD 133 həssaslıq və onlarda gender fərqliliyi" haqqında ətraflı məlumat verdim. Artıq 3 ildən çoxdur ki, kolorektal poliplərdə kanser kök hüceyrələrinin araşdırılması və onların klinik əhəmiyyəti barəsində elmi iş üzərində çalışıram. Bu işlə əlaqədar olaraq beynəlxalq və yerli konfranslarda çıxışlarım olur, eyni zamanda beynəlxalq və yerli tibb nəşrlərində məqalələrim dərc olunub. Onu da deyim ki, elmi tədqiqat işimin əsas hissələri - xəstə sayı, potomarfoloji incələnmə, endoskopik müdaxilələr Mərkəzi Gömrük Hospitalında aparılıb. İşimin bir hissəsini isə Türkiyənin Konya şəhərində Erbakan Universitetində aparmışam".

Onu da əlavə edək ki, Aynur Səfiyeva bu konfransda Azərbaycanı təmsil edən yeganə həkim olub: "Konfransda Azərbaycanı təmsil edən tək mən idim. Lakin çıxışımdan sonra artıq hər kəs məni görəndə "Azərbaycan" deyirdi və mən bununla çox böyük şərəf duyurdum. Bir vətənpərvər Azərbaycan ziyalısı olaraq düşünürəm ki, vətənimi layiqincə təmsil etməyi bacardım".

Aynur Şəfiyeva deyir ki, bu konfransda iştirak ona böyük dividendlər qazandırıb. İlk olaraq bu mötəbər konfransdan gözləntisinə nail olub: "Konfransda Azərbaycanı yüksək səviyyədə təmsil etməyi bacardım. Elmi-tədqiqat işimi nüfuzlu alimlərin müzakirəsinə verdim və onların dəyərli fikirlərini aldım, digər ölkələrin mütəxəssisləri ilə bərabər elmi mübadilə apardım. Onu da deyim ki, bu yaxınlarda Qadın Həkimlərin Beynəlxalq Assosiasiyasının rəhbərliyi altında bir tədqiqat qrupunun yaradılması nəzərdə tutulub. Sevinirəm ki, mən də bu tədqiqat qrupunda iştirakım üçün təklif aldım".

Tibb üzrə fəlsəfə doktoru gələcək planları barədə də danışdı. Elmi işlərini davam etdirəcəyini vurğulayan həkimin sözlərinə görə, Azərbaycan ziyalısı olaraq bacardığı qədər ölkəmizi və çalışdığı Mərkəzi Gömrük Hospitalını bundan sonra da beynəlxalq konfranslarda yüksək səviyyədə təmsil etməyə çalışacaq.

Həkim Avropa koloproktoloji dərnəyinin Azərbaycan üzrə milli təmsilçisi qismində dərnəyin Avstriyanın Vyana şəhərində sentyabr ayında keçiriləcək illik toplantısında da iştirak etməyi planlaşdırır.

***Bəxtiyar ƏZİZLİ, "Azərbaycan"***

# Əhalinin ümumi gəlirləri 32 milyard manatdan çox olub

Yanvar-iyul aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrünə nisbətən 6,6 faiz artaraq 32 milyard 218,8 milyon manata çatıb.

Dövlət Statistika Komitəsinin yaydığı xəbərə əsasən, bu dövrdə əhalinin hər nəfərinə orta hesabla 3259,7 manatlıq gəlir düşüb. Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 29 milyard 559,7 milyon manat (əvvəlki ilin eyni dövrünə nisbətən 6,7 faiz çox) vəsait qalıb.

# 7 ayda 1300-dən çox minik avtomobili istehsal olunub

İlin əvvəlindən ölkə üzrə maşın və avadanlıqların, digər nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 161,5 milyon manatlıq məhsul istehsal edilib.




O cümlədən bu dövr ərzində 837 traktor, 1304 minik avtomobili istehsal olunub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə maşın və avadanlıqların istehsalı 13,6 faiz artıb, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 28,3, digər nəqliyyat vasitələrinin istehsalı 7,5 faiz azalıb.

# Azərbaycana gələn turistlərin sayında 7,4 faiz artım var

Dövlət Statistika Komitəsi ölkənin turizm sektoru barədə son göstəriciləri açıqlayıb. Bildirilir ki, Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, cari ilin yanvar-iyul aylarında Azərbaycana 187 ölkədən 1 milyon 777,4 min və ya 2018-ci ilin yanvar-iyul ayları ilə müqayisədə 7,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.

Gələnlərin 30,6 faizi Rusiya Federasiyası, 22,8 faizi Gürcüstan, 9,9 faizi Türkiyə, 7,2 faizi İran, 3,6 faizi Səudiyyə Ərəbistanı, 2,3 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Ukrayna və Hindistan, 1,5 faiz olmaqla Türkmənistan və İraq, 1,4 faiz olmaqla Qazaxıstan, İsrail və Pakistan, 1,3 faizi Böyük Britaniya, 11,2 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslərdir.

Ölkəmizə bu dövrdə gələnlərin sayında daha çox artım Misir (83,2 faiz), Hindistan (80,6 faiz), Türkmənistan (78,5 faiz), Çin (74,3 faiz), Səudiyyə Ərəbistanı (48,8 faiz), Macarıstan (48,1 faiz), Böyük Britaniya (30,9 faiz), Cənubi Koreya (30,9 faiz), Yaponiya (29,3 faiz), Polşa (27,7 faiz), Kanada (25,2 faiz), Almaniya (25,1 faiz) və Gürcüstan (23,4 faiz) vətəndaşları arasında qeydə alınmışdır. Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı da 26,3 faiz artaraq 83,2 min, MDB ölkələrindən gələnlərin sayı isə 6,7 faiz artaraq 655,1 min nəfərə çatmışdır.

7 ay ərzində xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 23,9 faiz artaraq 3 milyon 115,1 min nəfər olmuşdur. Ölkə vətəndaşlarının 37,8 faizi İrana, 28,1 faizi Gürcüstana, 17,7 faizi Rusiya Federasiyasına, 11 faizi Türkiyəyə, 5,4 faizi digər ölkələrə getmişdir.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 61,8, Gürcüstana gedənlərin sayı 12,4, Rusiya Federasiyasına gedənlərin sayı 7,7, Türkiyəyə gedənlərin sayı 3,7 faiz artmışdır.

# Dövlət komitəsinin sədri və sədr müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev avqustun 21-də Gədəbəy rayonunda vətəndaşları qəbul edib. Dövlət komitəsindən AZƏRTAC-a bildirilib ki, qəbulda Gədəbəydə müvəqqəti məskunlaşmış məcburi köçkünlər iştirak ediblər. Qəbul zamanı məcburi köçkünlərin qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Digər məsələlərin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Həmin gün dövlət komitəsinin sədr müavini Fuad Hüseynov Ağstafa və Qazax rayonlarında, sədr müavini Sabir Əhmədov isə Tovuz rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkünləri qəbul ediblər.


Azercell

abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 23.08.2019-cu il tarixində, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.


# Yeni müəssisədə 2500 nəfər işləyəcək





*Əvvəli 1-ci səh.*

2000-ci ildən fəaliyyət göstərən "Saloğlu" mebel fabriki bu gün nəinki Azərbaycanda, hətta ölkə hüdudlarından kənarda tanınır. Fabrik qərb bölgəsinin ən böyük müəssisələrindən biri kimi, məhsulları ilə xarici bazarlarda "Made in Azerbaijan" brendini ləyaqətlə təmsil edir.

Prezident İlham Əliyev də müəssisədə olmuş, fabrikin gördüyü işlərə yüksək dəyər vermişdir. Dövlət başçısının verdiyi tövsiyə və tapşırıqlardan ruhlanan müəssisə hədəflərini daha da genişləndirərək yeni layihəyə start vermişdir. Hazırda müəssisənin yaxınlığında yeni istehsal sahəsi - "Venzana" fabriki tikilir. Daha doğrusu, xüsusi layihə əsasında inşa edilən müəssisənin tikintisi artıq başa çatır. Yeni fabrikin cari ilin sonunda fəaliyyətə başlaması gözlənilir. İstehsal ediləcək mebellərin isə 2020-ci ilin ilk rübündən Avropaya ixracı planlaşdırılır.

Qeyd edək ki, "Venzana" layihəsi təkcə böyük bir fabrikin ərsəyə gəlməsi demək deyil. Eyni zamanda bölgədə məşğulluğun təmin olunmasında reallaşdırılan ən uğurlu layihələrdən biridir. 2500 nəfərin işləyəcəyi fabrikin istifadəyə verilməsi həm ölkə iqtisadiyyatının güclənməsi, həm də əhalinin maddi rifah halının yaxşılaşması demək olacaq.

Layihənin vaxtında başa çatdırılması rayon rəhbərliyinin də diqqət mərkəzindədir. Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov tez-tez "Saloğlu" mebel fabrikinə gəlir, kollektivlə görüşür, fabrikin inşasının gedişi ilə maraqlanır. Müəssisənin direktoru Tacəddin Mustafayev deyir ki, işlər nəzərdə tutulduğu vaxtda başa çatdırılacaq.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Ermənistanda hakimiyyətlə xalq arasında uçurum daha da dərinləşir

## İşğalçı ölkədə ictimai-siyasi vəziyyət sürətlə gərginləşir

*Əvvəli 1-ci səh.*

Hadisə yerinə daxili qoşun qüvvələri cəlb olunub. İnsident nəticəsində 30-a yaxın etirazçı saxlanılıb. Etirazçılarla polis arasında qarşıdurma olub, saxlanılanlar var.

Yerli mətbuatın verdiyi xəbərə görə, parlamenti mühasirəyə alan əhali Nikol Paşinyan ilə görüşmək istədiklərini bildiriblər. Onlar qeyd ediblər ki, İcevandakı, Gümrüdəki problemlərin nə vaxt həll olunacağını baş nazirdən öyrənmək istəyirlər.

Etirazçıların fikrincə, əvvəl olduğu kimi, bu gün də ölkə talanır. Ölkədəki binaların 80 faizi qəzalı vəziyyətdədir. Bu səbəbdən ailələrin böyük əksəriyyəti gecəni küçələrdə keçirirlər. Bundan başqa, Ermənistanda işsizlər ordusunun sayı 47 min nəfərdən çoxdur. 50 mindən çox insan ölkəni tərk edib. Aksiya iştirakçıları N.Paşinyana xəbərdarlıq edərək bildiriblər ki, problemlər öz həllini tapmasa parlamentin qarşısında narazı kütlənin sayı artacaq.

Yerli medianın verdiyi xəbərlərə görə, yaranmış ağır durum fonunda bazarlar dəfn bürosunu xatırladır, buraya heç kim gəlmir, heç kim alış-veriş etmir. Bazarlardakı satıcılar bildirirlər ki, qiymətlərin baha olması ilə əlaqədar alış-veriş kəskin azalıb. Satıcılardan biri deyib: "Bizdə almaların kiloqramı 3 dollara, armud 4 dollara yaxındır. Ona görə də insanlar bazara gəlmirlər. Onların pulu yoxdur, necə alış-veriş etsinlər?"

Bazarlardakı qiymətlərdən daha çox pensiyaçılar şikayət edirlər. Onlar 60 dollar həcmində pensiya aldıqlarını, bununla alış-verişin mümkün olmadığını vurğulayırlar.

Hadisələrin bu səpkidə cərəyan etdiyi bir vaxtda Ermənistanın Ədliyyə Nazirliyi ölkədə zorakılığa çağırışlara və zorakılığı təbliğ edənlərə qarşı cinayət cəzasının tətbiqi ilə bağlı qanun layihəsi hazırlayıb. Maraqlıdır ki, təşəbbüs bir müddət əvvəl hökumət iclasında cəmiyyətdə zorakılığa yer olmadığını bəyan edən baş nazir Nikol Paşinyan tərəfindən irəli sürülüb.

"Qolos Armenii" saytı ölkə rəhbərinin bu təşəbbüsünün altında nələr gizləndiyini üzə çıxararaq oxucularını o qədər də intizarda qoymur. Erməni saytı qanun layihəsi kimi təqdim edilən "zorakılığa çağırışlar" və "zorakılığın təbliği"nin nə demək olduğunun layihə müəlliflərinin anladığına şübhə ilə yanaşır: "Heç bir beynəlxalq hüquq sənədlərində bu anlayışlar dəqiq şəkildə ifadə olunmur. Bu baxımdan dünyanın bir çox ölkələri bizi barmaqla göstərib "həsəd" aparacaq, lap elə "paxıllıqdan" öləcəklər. Bu qanun layihəsi paralel olaraq söz azadlığına da təsir edəcək. Təklif edilən qanun layihəsi beynəlxalq hüququn əsas tələblərinə tam əsaslanmır və bu, söz azadlığının məhdudlaşdırılmasına da səbəb olacaq. Bu layihə Ermənistanda "qanuni" fəaliyyət göstərən prokuror və hakimlərin köməyi ilə tənqidçi jurnalistləri, eləcə də siyasi rəqibləri məhv etmək üçün vasitədən başqa bir şey deyil".

"Joxovurd" qəzeti yazır ki, yaranmış vəziyyətdə Paşinyan hakimiyyətdə yerini daha da möhkəmlətmək üçün bütün addımları atacaq və ölkənin tənəzzülü daha da sürətlənəcək. Bildirilir ki, bu, Ermənistanın durumunu daha da ağırlaşdıracaq ki, elə ictimaiyyət də məhz bundan narazıdır. Belə vəziyyətdə ölkədə hakimiyyətlə xalq arasında uçurumun daha da dərinləşməsi gözlənilir. Bu isə Ermənistanı növbəti vətəndaş qarşıdurmasına da sürükləyə bilər.

Görünən odur ki, hazırda işğalçı ölkədə hakimiyyət həqiqi işlə yox, avantüra ilə məşğuldur. İqtidar rəsmiləri yalnız populist çıxışlarla camaatın könlünü ələ almaq istəyirlər. Xalq isə bunları görür, etiraz edir. Bu fonda da Ermənistanda ictimai-siyasi vəziyyət sürətlə gərginləşir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***


B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 30.08.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün Müxtəlif təyinatlı, markalı nasosların və onların birləşdirici elementlərinin satın alınması üzrə Açıq Tender prosedurunun davamından imtina edilir.

*Tender komissiyası*

B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti Yumşaq inventar və yataq ləvazimatlarının alınması üzrə kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 26.08.2019-cu il saat 17:30-dək qəbul olunur.

Ünvan: Lənkəran şəhəri, Həzi Aslanov, 50

*Tender komissiyası*



# DÜNYA



Beynəlxalq siyasət

# Rusiya G7-yə qoşulur

## ABŞ və Fransa "Böyük səkkizlər" formatının bərpasına tərəfdardır

ABŞ Prezidenti Donald Trampın yeni bəyanatı dərhal dünya ictimaiyyətinin diqqət mərkəzinə düşmüşdür. Ağ evin başçısı bildirmişdir ki, Rusiyanın iştirakı ilə G8 ("Böyük səkkizlər") formatına qayıdış məqsədəuyğundur. Trampın fikrincə, "Rusiya G8-də olsaydı, bu, daha məqsədəuyğun olardı, çünki toxunduğumuz bir çox məsələlər Rusiya ilə bağlıdır". ABŞ Prezidenti əlavə etmişdir ki, kimsə belə bir təkliflə çıxış etsə, o, buna müsbət yanaşardı.



Tramp vaxtilə Rusiyanın G8-dən xaric olunmasında Prezident Barak Obamanı günahlandırmışdır. Onun fikrincə, Obama Rusiya Prezidenti Vladimir Putinə uduzduğuna görə Moskvanın G8-dən uzaqlaşdırılmasında israr etmişdir.

CNN telekanalı ABŞ Prezidentinin administrasiyasındakı mənbəyə istinadən xəbər verir ki, G8 formatını bərpa etmək ideyası Trampa yox, Fransa Prezidenti Emmanuel Makrona məxsusdur. Telekanalın məlumatına görə, ABŞ və Fransa liderləri srağagün apardıqları telefon danışığında belə bir ortaq fikrə gəlmişlər ki, Rusiyanın 2020-ci ildə G7 sammitində iştirakı məqsədəuyğun olardı. CNN qeyd edir ki, Tramp G8 formatına qayıtmaq təşəbbüsünü "Böyük yeddilər"in avqustun 24-26-da Fransanın Biarrits şəhərində keçiriləcək zirvə görüşündə müzakirə etmək niyyətindədir.

G8 formatının bərpası həmişə Rusiyada rəğbətlə qarşılanır. Hələ ötən ilin iyununda bu məsələ G7 sammitində müzakirə edilmişdi. ABŞ Prezidenti Donald Tramp qeyd etmişdi ki, G8 platforması G7-dən daha məzmunludur. Rusiya Prezidenti Vladimir Putin də "Böyük səkkizlər"in yenidən bir araya gəlməsi imkanından məmnunluğunu ifadə etmişdi. Lakin o vaxt İtaliyadan başqa beynəlxalq klubun heç bir üzvü Trampın təklifini dəstəkləməmişdi.

Rusiya lideri ABŞ Prezidentinin G8-i bərpa etmək təşəbbüsünü bu günlərdə bir daha təqdir etmişdir. O bəyan etmişdir ki, Moskva G8 formatında iştirakdan heç vaxt imtina etməmişdir. Putin qeyd etmişdir ki, G8 hazırda mövcud deyil: "Mən mövcud olmayan təşkilata qayıda bilərəm. Bu gün o, "Böyük yeddilər"dir. Səkkiz dövlət çərçivəsində mümkün formata gəlincə, biz ondan heç vaxt imtina etmirik. Vaxtilə Rusiyanın G8-i keçirmək növbəsi çatmışdı, amma tərəfdaşlarımız gəlməmişdilər. Biz istənilən vaxt tərəfdaşlarımızı "Böyük səkkizlər" çərçivəsində qəbul etməyə hazırıq".

Eyni zamanda Putin vurğulamışdır ki, beynəlxalq məsələlərdə əhəmiyyətli rol oynayan G20 kimi digər beynəlxalq təşkilatlar da var. O xatırlatmışdır ki, bu gün Çin Xalq Respublikası, Hindistan və bir çox başqa güclü iqtisadi oyunçular G20-də təmsil olunur, özü də həmin 20 ölkə dünya iqtisadiyyatının 90 faizi deməkdir: "Belə tamformatlı müstəvilər nəzərəçarpacaq rol oynayır. Biz həmçinin Şanxay Əməkdaşlıq Təşkilatı, BRİKS kimi bəzi regional təşkilatlarda fəal işləyirik. Bir daha təkrar edirəm: ümumiyyətlə, tərəfdaşlarımızla istənilən formatda təmas həmişə faydalıdır. Biz heç nəyi istisna etmirik".

Hadisələrin gedişi göstərir ki, bu dəfə G8-in bərpası real görünür. G7 üzvlərinin hamısının təşəbbüsə münasibəti hələlik məlum olmasa da, ABŞ və Fransa kimi böyük aktorların mövqeyi nəzərə alınmaya bilməz. Odur ki, Rusiyanın iştirakı ilə G8 formatına qayıdışın reallaşmasını zaman məsələsi hesab etmək olar.

Müşahidəçilər G8-in bərpası və ABŞ-Rusiya münasibətlərini müəyyən dərəcədə yaxşılaşdırmaq fikri ilə əlaqədar Ağ ev başçısının atmaq istədiyi başqa bir addıma da diqqət yetirirlər. Tramp ABŞ-ın Rusiyadakı səfiri Con Hantsman bu il oktyabrın 3-də istefaya çıxdıqdan sonra bu vəzifəyə dövlət katibinin müavini Con Sallivanı təyin etmək niyyətindədir. Hantsman Rusiyaya münasibətdə sərt mövqeyi ilə seçilir. O, əvvəllər bəyan edirdi ki, Rusiya "bizim hərəkətlərimizi təhdid edəndə" Vaşinqton Moskvanı məsuliyyətə cəlb etməyə çalışmalıdır. Ekspertlər hesab edirlər ki, Sallivanın Rusiyada səfir vəzifəsinə təyin edilməsi Vaşinqtonun Rusiya ilə əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəltmək istəyindən xəbər verir. Doğrudur, gələcək səfir Rusiya üzrə mütəxəssis deyil, amma o, iyulun 17-18-də Cenevrədə strateji təhlükəsizlik üzrə Rusiya-ABŞ danışıqlarında Amerika nümayəndə heyətinə başçılıq etmişdir. Başqa sözlə, Sallivan ABŞ-ın Rusiya siyasətinə o qədər də yad deyil.

Rusiyanın iştirakı ilə G8 formatının bərpası, şübhəsiz, beynəlxalq siyasətə yeni ab-hava gətirəcək, eyni zamanda aparıcı dövlətlərin mürəkkəb problemlərin həllində ortaq məxrəcə gəlməsi üçün imkan yaradacaq.

Məlumat üçün qeyd edək ki, G7 iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin - ABŞ, Yaponiya, Almaniya, Böyük Britaniya, Fransa, Kanada və İtaliyanın daxil olduğu birlikdir. Klub "Böyük yeddilər" formatında 1976-cı ildən 1997-ci ilədək mövcud olmuşdur. Rusiya kluba qoşulduqdan sonra o, G8 adlanmışdır. 2007-ci ildə Rusiya Krımı ilhaq etdikdən, ABŞ və Avropanın Rusiya ilə münasibətlərində böhran yarandıqdan sonra G8 formatı mövcudluğuna son qoymuşdur. O vaxt G8-in sədri kimi Rusiya Soçidə "Böyük səkkizlər"in sammitini qəbul etməli idi. Amma dünyanın aparıcı dövlətlərinin liderləri sammitə qatılmaqdan imtina etdilər və bunun əvəzinə Brüsseldə G7 görüşü keçirildi.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

Qalmaqal

## Tramp Qrenlandiya üzündən Danimarkaya səfərini təxirə saldı



ABŞ Prezidenti Donald Tramp Danimarkaya planlaşdırdığı səfəri təxirə salmışdır. O, bu qərarı Danimarkanın Baş Naziri Mette Frederiksenin ABŞ Prezidenti ilə Qrenlandiya adasının satışı imkanını müzakirə etmək istəmədiyini bildirəndən sonra qəbul etmişdir.

Tramp Twitterdə yazmışdır: "Danimarka fövqəladə ölkədir, gözəl xalqı var. Baş Nazir Mette Frederiksenin Qrenlandiyanın satışını müzakirə etməyə marağı olmadığını bildirəndən sonra planlaşdırılmış görüşümüzü təxirə salıram". Eyni zamanda Prezident Baş Nazir Frederiksenə sözü birbaşa dediyinə görə təşəkkür etmişdir: "Baş Nazir səmimiliyi ilə həm ABŞ, həm də Danimarka üçün bir çox məsrəfləri və səyləri qənaət etmişdir. Buna görə ona təşəkkür edirəm".

Tramp gələn ayın 2-3-də Danimarkada səfərdə olmalı idi. O, Danimarka rəhbərliyi ilə Arktika məsələlərini müzakirə etmək niyyətində idi.

Frederiksen Trampın Qrenlandiyanı satın almaq planına sərt reaksiya vermişdi. Baş Nazir yerli KİV-ə müsahibəsində demişdi: "Qrenlandiya satılmır. Qrenlandiya Danimarka deyil. Qrenlandiya Qrenlandiyaya məxsusdur. Çox ümid edirəm ki, bu, ciddi deyilməyib".

Danimarka kral xanədanının rəsmi nümayəndəsi Lene Ballebyu bildirmişdir ki, Trampın Danimarkaya səfərini təxirə salması sürpriz olmuşdur. O qeyd etmişdir ki, "bu, gözlənilməz idi və məsələ ilə bağlı nəsə deyə bilmərik".

Danimarkalı siyasətçilər ABŞ liderinin qərarından hiddətlənmiş və səfərin təxirə salınmasını yox, ləğv olunmasını təklif etmişlər, çünki danimarkalıların "başqa işləri var". Onlar Trampın təklifini təhqiramiz, Prezidentin özünü isə ağılsız saymışlar. Siyasətçilər Trampa Alyaskanı satışa çıxarmağı təklif etmişlər.

Münaqişə

## Yəməndə ABŞ-ın pilotsuz təyyarəsi vuruldu



Yəmənin şimalına nəzarət edən "Ənsar Allah" hərəkatının qiyamçıları bildirmişlər ki, hava hücumundan müdafiə qüvvələri raketlə ölkənin mərkəzi hissəsində, Dəmar əyalətində ABŞ-ın MQ-9 pilotsuz təyyarəsini vurmuşdur.

Hərəkatın nümayəndəsi "əl-Məsirə" telekanalına müsahibəsində bildirmişdir ki, pilotsuz təyyarəni vuran raket ölkədə modernləşdirilmişdir və tezliklə mətbuat konfransında nümayiş etdiriləcək. O xəbərdarlıq etmişdir ki, Səudiyyə Ərəbistanının başçılıq etdiyi ərəb koalisiyası "Yəmənin hava məkanına müdaxilə etməzdən əvvəl min dəfə fikirləşməlidir", çünki qiyamçıların ölkə səmasında yad aviasiyanın peyda olmasına mane olmaq imkanı var.

ABŞ-ın pilotsuz təyyarələri terrorizmdə şübhəli bilinən şəxsləri məhv etmək üçün tez-tez Yəmən səmasında peyda olur.

İran körfəzi

## Avstraliya ABŞ-ın hərbi missiyasına dəstək verəcək



Avstraliya Hörmüz boğazında gəmiçiliyin təhlükəsizliyinin təmin edilməsi işində ABŞ-a qoşulacaq və İran körfəzinə məhdud hərbi kontingent göndərəcək. Bu barədə Avstraliyanın Baş Naziri Skott Morrison məlumat vermişdir.

Hökumətin başçısı qeyd etmişdir ki, Avstraliya regionda gəmilərin sərbəst hərəkətini təmin etmək məqsədilə beynəlxalq səylərə miqyas və zaman baxımından məhdud töhfə verəcək. Morrison əlavə etmişdir ki, Yaxın Şərqdə təhlükəsizliyin təmin edilməsi işində beynəlxalq tərəfdaşlarla əməkdaşlıq Avstraliyanın milli maraqlarına cavab verir, çünki ölkənin aldığı neftin 25 faizi Hörmüz boğazından keçir.

Məlumata görə, Avstraliya hərbi missiya çərçivəsində İran körfəzinə hərbi gəmi, müşahidə təyyarəsi, 200 əsgər və zabitdən ibarət məhdud kontingent göndərəcək.

İstefa

## İtaliya Prezidenti Baş Nazirin istefasını qəbul etdi



İtaliya Prezidenti Serco Mattarella Baş Nazir Cüzeppe Kontenin istefasını qəbul etmişdir. Bu barədə Prezidentin mətbuat xidməti məlumat vermişdir.

Konte srağagün istefaya çıxacağını bildirmişdi. Yaxın günlərdə Mattarella əsas siyasi partiyaların liderləri ilə məsləhətləşmələr aparacaq. Prezident ya növbədənkənar seçkilər keçirmək qərarı alacaq, ya da hökuməti təşkil etmək üçün yeni hakim koalisiya yaratmağa cəhd edəcək.

Sülh və əmin-amanlıq

# Azərbaycan Qoşulmama Hərəkatına yeni stimul verir

Keçən əsrin ortalarında beynəlxalq münasibətlər sistemini tənzimləmək üçün mexanizmlər axtarıldı. Onların sırasında 1955-ci ildə təsis edilmiş Qoşulmama Hərəkatının öz yeri vardır. Bu təşkilatın rəsmən yaradılmasını 1961-ci il Belqrad Konfransına aid edirlər. Bütün hallarda təşkilatın başlıca vəzifəsi kimi qlobal miqyasda sülh, əmin-amanlıq, dinc yanaşı yaşama, ədalətli əməkdaşlıq prinsiplərinin bərqərar olması göstərilir. Təcrübə göstərir ki, dünyanın belə bir təşkilata ciddi ehtiyacı mövcuddur. Doğrudur, "soyuq müharibə"dən sonra bir müddət Qoşulmama Hərəkatına sanki maraq azaldı. Ancaq proseslərin gedişi göstərdi ki, əksinə, XXI əsrdə beynəlxalq aləmin bu hərəkata daha çox ehtiyacı olacaq. Bu səbəbdən indi həmin təşkilatın güclənməsində maraqlı olan ölkələr çoxdur. Bu ildən Qoşulmama Hərəkatında sədrlik iki il müddətinə Azərbaycana keçir. **Newtimes.az** bu hadisə kontekstində Qoşulmama Hərəkatının fəaliyyətinin geosiyasi aspektini geniş təhlil etmişdir.




### Ədalətli dünya uğrunda: "zərurətdən doğan birlik"

Müasir dünyada geosiyasi mənzərənin mürəkkəbliyindən, ziddiyyətli məqamlarından, risklərindən mütəxəssislər çox yazır, siyasilər danışırlar. Bütün dünyanı dinc yanaşı yaşamağın yolları maraqlandırır. Bu prosesdə beynəlxalq təşkilatların rolunun artırılmasından bəhs edilir. Hətta BMT-nin kifayət qədər təsirli olmadığı da vurğulanır. Burada əsas şərtlərdən biri dünya dövlətlərinin beynəlxalq hüquqa əməl etməsi, normaları, qaydaları gözləməsi və əməkdaşlıqda səmimiyyəti, ədaləti qorumasıdır. BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının əhəmiyyəti bu kontekstdə çox böyükdür.

Bu təşkilatın əsası 1955-ci ildə, yəni BMT yaranandan 10 il sonra qoyulub. Təşəbbüskarından biri, o dövrdə "üçüncü dünya ölkələri" sırasında olan İndoneziyanın Prezidenti Əhməd Sukarno olub! O, 22 il bu ölkəyə rəhbərlik edib. Ə.Sukarno Qoşulmama Hərəkatını "zərurətdən yaranan birlik" adlandırmışdı. Səbəbi nədən ibarət ola bilərdi?

İkinci Dünya müharibəsindən sonra dünya faktiki olaraq Qərb və SSRİ kimi iki əks düşərgəyə bölündü. Aydın görünürdü ki, belə bir şəraitdə beynəlxalq münasibətlərdə ədaləti, hüquq normalarını və dinc yanaşı yaşamağı təmin etmək xeyli çətin olacaqdı. Xüsusilə dünyanın çox sayda dövlətlərinin maraqlarının nəzərə alınmaması, bitərəf bir mövqenin formalaşmasının mümkün olmayacağı hiss edilirdi.

Bu səbəblərdən iki böyük gücdən kənarda olan ölkələrin maraqlarını gözləyə biləcək, ədalətli, bitərəf, səmərəli, konstruktiv mövqe tutacaq beynəlxalq təşkilata ehtiyac vardı. Bu təşkilat həm də ABŞ və SSRİ arasındakı qarşıdurmadan, ziddiyyətlərin gərginləşməsindən kənarda qala biləcək bir geosiyasi və siyasi-diplomatik mühit yaratmalı idi. Məhz buna görədir ki, həmin təşkilatın adında "qoşulmama" sözü vardır. Bu təşkilatın Asiya və Afrika ölkələrinin Bandunq Konfransında təsis edilməsi də tam məntiqli idi.

Ona üzv olan ölkələrin xarici siyasətində hərbi-siyasi bloklarda iştirakdan imtina, xalqların müstəqillik və hüquq bərabərliyi prinsipləri əsasında dinc yanaşı yaşaması prinsipləri üstünlük təşkil edir. Bandunq Konfransında Ümumi sülhə və əməkdaşlığa dəstək haqqında Bəyannamə qəbul edildi. Sənəddə ölkələrin dinc yanaşı yaşamasının və əməkdaşlığının on prinsipi şərh edilmişdi.

Orada insan hüquqlarına, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət yer alıb. Bunlardan əlavə, başqa ölkəyə hərbi müdaxilədən və onun daxili işlərinə qarışmaqdan çəkinmə, BMT Nizamnaməsinə müvafiq olaraq, hər bir ölkənin fərdi və kollektiv müdafiə hüququna hörmət, hər hansı ölkənin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı təcavüz və ya güc tətbiqetmə aktlarından, yaxud bu cür təhdidlərdən çəkinmə ifadə edilib.

1961-ci il Belqrad Konfransının Bəyannaməsində də bu prinsiplər öz əksini tapıb. Beləliklə, Qoşulmama Hərəkatının baza prinsipləri kimi beynəlxalq münasibətlərdə diktatın, hegemonluğun və ekspansiyanın qəbul edilməməsi, dövlətlər arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın zəruriliyi, ədalətə və hüquq bərabərliyinə əsaslanan yeni iqtisadi qaydanın formalaşması uğrunda mübarizə qəbul edilib.

Təcrübə göstərdi ki, bu təşkilatın yuxarıda vurğulanan prinsiplər əsasında yaradılması dünya üçün faydalıdır. Həm "soyuq müharibə" dövründə, həm də ondan sonra dünyanın həmin prinsiplərə ehtiyacı çox olub. XXI əsrin başlanğıcı göstərdi ki, Qoşulmama Hərəkatının aktuallığı getdikcə daha da artır. Artıq onun 120 üzvü vardır.

### Fəal mövqe: Azərbaycanın növbəti nümunəsi

Azərbaycan 2011-ci ildən Qoşulmama Hərəkatının üzvüdür. 2019-2021-ci illərdə bu təşkilata sədrlik edəcək. Prezident İlham Əliyevin 2019-cu il 11 fevral tarixli sərəncamında təşkilatın Azərbaycana verdiyi xarici siyasət dividendləri konkret ifadə edilib. Sərəncamda vurğulanıb ki, Azərbaycanın Qoşulmama Hərəkatında iştirakı onun beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq proseslərinə daha fəal cəlb edilməsinə geniş imkanlar açıb. Eyni zamanda Azərbaycanın müxtəlif dövlətlərlə, o cümlədən Latın Amerikası, Asiya və Afrika ölkələrinin çoxu ilə ikitərəfli və çoxtərəfli münasibətlərinin inkişafı üçün əlverişli şərait formalaşıb.

Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatı Azərbaycan üçün iki miqyasda - regional və qlobal səviyyədə geosiyasi proseslərə daha aktiv təsir etmək imkanı yaradır. Regional səviyyədə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində meydana gəlmiş qanlı münaqişənin ədalətli, beynəlxalq hüquq prinsipləri çərçivəsində aradan qaldırılması üçün fəaliyyət meydanı genişlənir. Dünyanın 120 ölkəsi təcavüzkarın qarşısının alınması məsələsində həmrəy olursa, bu, ciddi hadisədir. Məsələ yalnız söz deməklə məhdudlaşmır, onun həyata keçməsi üçün də müəyyən mexanizmlər mövcuddur. Qoşulmama Hərəkatı bu aspektdə böyük dövlətlərə də müraciətlər hazırlaya bilər.

Məlumdur ki, artıq Qoşulmama Hərəkatının nazirləri bir çağırış ediblər. Onlar çağırışda BMT Nizamnaməsində göstərilmiş güc tətbiq etməmə prinsipinin əhəmiyyətini təsdiq ediblər. Bu əsasda münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində danışıqlar vasitəsilə nizamlanması zəruriliyini vurğulayıblar. Təbii ki, Yer kürəsi əhalisinin təqribən 55 faizinin yaşadığı 120 ölkənin etdiyi bu çağırış ciddi siyasi və geosiyasi əhəmiyyətə malikdir.

Qlobal miqyasda isə Qoşulmama Hərəkatı bütövlükdə dünyada ədalətli, dinc və sivil qaydada birgəyaşayışın təmin edilməsinə öz töhfəsini verə bilər. Bu baxımdan 2018-ci ildə Bakıda keçirilmiş Qoşulmama Hərəkatının "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusundakı konfransında Prezident İlham Əliyevin vurğuladığı bir fikir olduqca maraqlı və əhəmiyyətlidir. Dövlət başçısı ifadə edib: "Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də müəyyən dərəcədə oxşardır. Hamımız öz həyatımızı, müstəqil həyat sürməyi arzulayırıq. Biz hamımız istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik".

Bu fikirlər indiki mərhələdə geosiyasi mühitdə cərəyan edən hadisələr və yeni dünya nizamının formalaşması zərurəti işığında çox aktual görünür. Siyasi liderlər qlobal səviyyədə geosiyasi ziddiyyətlərin və onların fonunda dünya miqyasında xaosun getdikcə daha da dərinləşdiyini vurğulayırlar. Yeni dünya nizamının formalaşmasına bu, təbii ki, ciddi mənfi təsir göstərir. Belə bir şəraitdə beynəlxalq səviyyədə yeni nizamın yaradılmasına yardım edə biləcək hər bir təşəbbüs qiymətlidir.

Bu il oktyabrın 25-26-da Bakıda keçirilməsi nəzərdə tutulan Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü həmin səbəbdən son dərəcə əhəmiyyətli hesab edilir. Azərbaycanın belə bir nüfuzlu təşkilata sədrlik etməyə başlaması, əlbəttə, bütün sivilizasiyalı bəşəriyyət üçün əlavə fürsətdir. Şübhə yoxdur ki, Bakı hər bir ölkə üçün aktual olan məsələlərin müzakirəsinə üstünlük verəcək. Dünyanın indiki qarışıq dövründə beynəlxalq hüquq normalarına uyğun fəaliyyət göstərməyin təşviq edilməsi prinsipial olaraq faydalıdır. Konkret desək, Azərbaycan üçün aktual olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllində yeni imkanlar yaranmaqdadır. Əlbəttə, Bakı bu şansdan maksimum dərəcədə yararlanmağa çalışacaq.

Bundan başqa, Azərbaycanın bu hərəkata sədrlik etməsi, ümumiyyətlə, Cənubi Qafqaz üçün faydalıdır. Azərbaycan regionun lideri olmaqla yanaşı, həm də qarşılıqlı faydalı kooperasiyanın müxtəlif formatlarına əsaslanan fəaliyyəti ilə seçilir. Deməli, Qoşulmama Hərəkatı çərçivəsində Bakının imkanları daha da genişlənəcək.

Nəhayət, onu da vurğulayaq ki, Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycana verilən yüksək qiymət ölkə rəhbərliyinin davamlı olaraq həyata keçirdiyi siyasətin təntənəsidir. Regionun başqa bir ölkəsi bu kimi nailiyyətlər əldə edə bilməyib. Azərbaycan bundan sonra da Cənubi Qafqazın lider dövləti olaraq, bütün istiqamətlərdə daha faydalı və konstruktiv fəaliyyətini davam etdirəcək.

# B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 24 may və 08 iyun 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 2 LOT-dan ibarət açıq tenderin nəticələrinə əsasən LOT 1: Condair markalı nəmləndirmə avadanlıqlarını enerji təchizatı ilə təmin etmək məqsədilə elektrik mallarının satın alınması və quraşdırılmasında "CLIMASERVICE BAKU" MMC qalib olmuşdur.

Qalib şirkətlə 16 avqust 2019-cu ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

*Təkrar*

# "Bakı Metropoliteni" QSC müxtəlif növ mühafizə vasitələrinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https:www.etender.gov.az- dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımı maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC üçün müxtəlif növ mühafizə vasitələrin satın alınması**

**iştirak haqqı - 1200 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **04 sentyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **12 sentyabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **13 sentyabr 2019-cu il saat 16:45-də** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

# "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti aşağıdakı işlərin görülməsinin satın alınması üçün *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1: "İçərişəhər" Muzey Mərkəzinin Bakı şəhəri, Xəzər rayonu, "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğu Qəsri"ndə təmir-tikinti işlərinin satınalması.**

Tələb olunan ehtiyat hissələri müqavilə imzalandığı gündən 31 dekabr 2019-cu il tarixinədək təhvil verilməlidir.

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 150 (bir yüz əlli) manat məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 (əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27) ünvanından ala bilərlər. **mahir.a@icherisheher.gov.az**

**VÖEN: 1700774621**
**H/h: AZ03AIIB33050019443600287106**
**Bank: "Kapital Bank" ASC-nin İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13 sentyabr 2019-cu il saat 17.00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 23 sentyabr 2019-cu il saat 17.00-a qədər "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 sentyabr 2019-cu il saat 10.00-da Mənzil-Kommunal və Təmir Xidmətinin Bakı şəhəri, İçərişəhər, 9-cu Maqomayev döngəsi, 6 ünvanında açılacaqdır.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC açıqcaların və hədiyyə bağlamalarının satın alınmasını həyata keçirir.

Maraqlanan şirkətlər (012) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 26.08.2019-cu il saat 17:00-dək qəbul olunur.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin "Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən Sumqayıt Kimya, Qaradağ, Pirallahı və Mingəçevir Sənaye Parkları haqqında Azərbaycan, ingilis və rus dillərində video təqdimat və video-çarxın hazırlanması işlərinin satın alınması məqsədilə kotirovka sorğusu keçirir**

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 28 avqust 2019-cu il saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə təqdim edilməlidir. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65). Zərflər 29 avqust 2019-cu il saat 15:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirçi Tower" ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə və ya **www.scip.az** saytından əldə edə bilərlər.

*Tender komissiyası*

*Təkrar*

# "Azərsu" ASC daxili vəsaiti hesabına su sərfiyyat ölçəni və ehtiyat hissələrinin satın alınması üçün *açıq tender elan edir*

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentindən (əlaqələndirici şəxs: Ağaəli Mirzəyev, 431-47-67/2246 (agali.mirzeyev@azersu.az) ala bilərlər.

**İştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**SWIFT BIK: AİİBAZ2X**
**H/h: AZ65AIIB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **02 sentyabr 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərflərdə **12 sentyabr 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **13 sentyabr 2019-cu il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Dövlət Yanğından Mühafizə Xidmətinin Sumqayıt şəhərində Dövlət Yanğından Mühafizə İdarəsinin 22 nömrəli yanğından mühafizə hissəsinin 3 girişli yanğınsöndürmə depo binasının ön fasadının aqlay daşı ilə üzlənməsi işlərinin yerinə yetirilməsinin satın alınması məqsədilə *təkliflər sorğusu elan edir*

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 300 (üç yüz) manat məbləğində iştirak haqqını aşağıdakı hesaba köçürdükdən sonra 02 sentyabr 2019-cu il saat 16:00-a qədər AZ1073, Bakı şəhəri, M.Müşfiq küçəsi, 501-ci məhəllə (Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi) ünvanına (əlaqələndirici şəxs: Elnar İmanov, telefon: 012 512-01-20) müraciət edə bilərlər.

**Fövqəladə Hallar Nazirliyi**

| | |
|---|---|
| **Hesab:** | **AZ38CTRE00000000000002658471** |
| **VÖEN:** | **1300959901** |
| **Büdcə səviyyə kodu:** | **7** |
| **Büdcə təsnifatı kodu:** | **142340** |

**Dövlət Xəzinədarlıq Agentliyi**

| | |
|---|---|
| **Kodu:** | **210005** |
| **VÖEN:** | **1401555071** |
| **Müxbir hesab:** | **AZ41NABZ01360100000000003944** |
| **SWIFT:** | **CTREAZ22** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Tender Komissiyası bildirir ki, Yeni tikiləcək 385 MVt gücündə "Qobu" Elektrik Stansiyasının tikintisinə nəzarət və layihələndirilməsi üçün məsləhətçi xidmətlərin satın alınması məqsədilə 27 iyul 2019-cu il tarixdə elan edilmiş açıq tenderi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən (tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduqda) baş tutmamış elan edir və onun davamından imtina edir.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının binalarında istismar müddəti başa çatmış qaz tipli avtomatik yanğınsöndürmə və yanğından ünvanlı xəbərvermə siqnalizasiya sistemlərinin yenilənməsi işlərinin satın alınması **(LOT 1)** və Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında təmir-bərpa işlərinin satın alınması **(LOT 2)** ilə əlaqədar elan edilmiş açıq tender üzrə Tender komissiyasının 31 iyul 2019-cu il tarixli qərarına əsasən **LOT 1** üzrə "ESTET" MMC və "Yanğından Qorunma Sistemləri" MMC, **LOT 2** üzrə "Ruslan Təmir Tikinti" MMC və "Yanğından Qorunma Sistemləri" MMC qalib elan edilmişdir. Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Balarəhim Quliyevə atası

**MİRZƏAĞA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Dövlət İttihamının Müdafiəsi üzrə İdarəsinin prokuroru Seymur Abbasova atası

**MƏHƏMMƏD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun kollektivi Emin və Könül Hüseynovlara əzizləri

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Emin Hüseynova anası

**SÜDABƏ HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9004
Sifariş 2736
Qiyməti 40 qəpik